**UOT: 791.43**

**Hümbət İsmayılov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: ismayilovhumbet1@gmail.com**

# CİZGİ FİLMLƏRİNİN YENİ NƏSLİN FORMALAŞMASINDA YERİ

**Xülasə**: Film istehsalı sahəsi dövlətin mədəniyyətinin formalaşması və qorunması prosesində böyük rola malikdir. Bu prosesin təməli isə filmin yeni nəslə təsiri formasından – cizgi filmlərinin istehsalından asılıdır. Cizgi film istehsalının kəmiyyət və keyfiyyət göstəriciləri yeni nəslin dil biliklərinin formalaşması, öz tarix və mədəniyyətlərinin öyrənilməsi və sağlam tərbiyə almasına güclü təsir edir.

**Açar sözlər**: cizgi film, uşaq, tərbiyə, milli, dil, inkişaf, rol, əhəmiyyət.

Hər bir cəmiyyətin təməlini azyaşlı nümayəndələr – uşaqlar təşkil edir. Belə ki, cəmiyyətdə ümumiləşmiş davranış qaydaları, mental dəyərlər, düşüncə tərzi, bilik və bacarıqlar, eləcə də onların nəticəsi olaraq təhsil, səhiyyə, idman, istehsal və xidmət sahələri hər bir fərdin ayrı-ayrılıqda bilik, bacarıq və düşüncəsindən asılıdır. Bu xüsusiyyətlər uşaqlarda kiçik yaşlarından formalaşmağa başlayır. Uşaqların malik olduğu xüsusiyyətlərə və xarakterə təsir edən bir sıra amillər mövcuddur. Onların ən mühümlərindən biri də məhz film istehsalının əsas növü olan cizgi filmlərdir. Belə ki, cizgi filmləri həm televiziya vasitəsilə hər bir ailəyə yol tapa bilir, həm də müasir dövrdə müxtəlif növ informasiya texnologiyaları ilə uşaqlarla birbaşa və uzunmüddətli təmas qura bilər. Cizgi filmləri uşaqların tərbiyəsində, dil biliklərinin formalaşmasında yaxından və əhəmiyyətli təsirə malikdir.

Azərbaycanda cizgi filmləri istehsalına "Azərbaycanfilm" kinostudiyasının təşəbbüsü ilə hələ 1930-cu illərin əvvəllərində başlanmışdr. Animasiyadan istifadə edərək ilk dəfə 1938-ci ildə "Abbasın bədbəxtliyi" adlı cizgi filmi istehsal olunub. Filmin mövzusu isə milli nağıllardan götürülmüşdür. Həmin ildə cizgi film istehsalı üçün kadr hazırlığı, texniki hazırlıqlar görən və cizgi filmləri sexini bərpa edən "Azərbaycanfilm" kinostudiyası 28 fevral tarixində "Cırtdan" adlı cizgi filmin istehsalını başa çatdırdı. Film həmin ildə ekranlara çıxarıldı və

uzun müddət kinoteatrlarda nümayiş etdirildi.

1970-ci ildən etibarən bir çox cizgi filmləri istehsalına başlandı. Həmin filmlər həm təsvir, həm də milli mənəvi dəyərləri aşılamaq baxımından təqdirəlayiq idi. "Ayı və siçan" (1970), "Fitnə" (1970), "Cücələrim" (1980), "Tülkü həccə gedir" (1971), "Çaqqal oğlu çaqqal"(1972), "Şahzadə – qara qızıl" (1974), "Günlərin bir günündə" (1975), "Dınqıl sazım, dınqıl" (1976), "Pəncə... Qulaq... Palaz... Tikan" (1976), "Xeyir və Şər" (1980), "Güzgü" (1990) "Söhbətüül-əsmar" (1994), "Karvan" (1995) kimi filmlər buna misal ola bilər.

Bütün bunları əsas tutaraq deyə bilərik ki, Azərbaycanda animasiya filmləri istehsalı üçün böyük bir potensial mövcuddur və vaxtilə bu potensial layiqincə dəyərləndirilmişdir. Müasir dövrdə də cizgi film istehsalını yox saya bilmərik. "AZANfilm" studiyası 2000-ci illərin əvvəlindən bəri "Cavanşir", "Basat və təpəgöz", "İt sərgisi", "Ən güclü kimdir?", "Gəlin birgə öyrənək" (çoxseriyalı film), "Əlifba", "Mənim balaca şahzadəm", "Tıq-tıqla möcüzələr axtarışında" kimi keyfiyyətli və dövrün tələblərinə cavab verən müasir animasiya filmləri istehsal etmişdir. Hətta 2013-cü ildə "Əriyan ada" filmi Kazan şəhərində keçirilən "IX Beynəlxalq Müsəlman Kino Festivalı"nda "Ən yaxşı qısametrajlı sənədli film" nominasiyası üzrə qalib olmuşdur. "Mənim balaca şahzadəm" animasiya filmi isə Cənubi Koreyada keçirilən "8th Seoul Guro International Kids Film" Festivalında "Bright future" ("Parlaq gələcək") nominasiyasının qalibi olub.

Lakin bu az saylı cizgi filmlərinin yayımında ciddi problemlər olduğu üçün cəmiyyət tərəfindən o qədər də tanınmır. Problem də məhz budur. Əvvəla, onu qeyd etmək lazımdır ki, müstəqillik qazandıqdan sonra ölkə ağır şəraitlə, torpaq itkiləriylə, böhranla qarşılaşmışdır. 30 il işğalda olan torpaqları azad etmək üçün bu qısa vaxtda 2-ci dəfə müharibə etməli oldu. Bunların hər biri həm iqtisadi, həm siyasi, həm də digər mədəni sahələrin inkişafına ağır zərbələr vururdu və bu geriləməni məqbul saymaq olar.

İndi isə nəzərə almaq lazımdır ki, dövlət bu itkiləri bərpa edib, hər bir sahədə əvvəlki ilə müqayisədə daha qüdrətlidir və həmçinin müasir texnologiyanın inkişafı sayəsində yeni məhsullar əldə edə bilir. Bu isə o deməkdir ki, film istehsalı da əvvəlki illə müqayisədə daha da asanlaşıb, az əmək və məsrəf tələb edən hala gəlib. Müasir texniki vasitələrin tətbiqi animasiya filmlərinin də kompüter qrafikası vasitəsilə daha sürətli yayımına səbəb olur. Bu sahədə mövcud olan problemləri araşdıraq:

**1. Milli-mənəvi dəyərlərin aşılanması və təbliğatı ilə bağlı problem**. Bu problemin mənbəyində 2 vacib məsələ dayanır. Birincisi, istehsal olunan animasiya filmlərinin sayca çox az olmasıdır. Hansı ki, 90-cı ildən əvvəlki dövr ilə sonrakı mərhələni müqayisə etdikdə bu fərq açıq-aşkar görünür. İkinci problem isə digər filmlər kimi cizgi filmlərinin də yayımının düzgün təşkil olunmamasıdır. Bu isə təyinatlı yayım şəbəkələrinin və zalların azlığı, eləcə də televiziyada animasiya filmlərinə kifayət qədər yer verilməməsi səbəbindən yaranan problemlərdir.

**2. Dil problemi**. Əvvəldə qeyd olunduğu kimi cizgi filmləri uşaqların dil öyrənməsinə, nitqinə yaxından və güclü təsir edən bir vasitədir. İstehsal və yayım azlığı bu problemin də kökündə dayanan əsas amildir. Belə ki, qonşu ölkə Türkiyənin film istehsalı sahəsində xeyli irəlidə olması animasiya filmlərinin də istehsalını artırıb və birbaşa bizim uşaqlara dil öyrədəcək səviyyədə yayımı həyata keçirilir. Hazırda demək olar ki, hər bir ailənin azyaşlı üzvləri Türkiyə türkcəsini sərbəst şəkildə danışa bilir, hətta öz oyunları, həmyaşıdları və böyüklər ilə ünsiyyət zamanı Türkiyə türkcəsindən istifadəyə üstünlük verir. Əlbəttə ki, bu uşağın könüllü seçimi deyildir. Sadəcə yaş dövrünün tələbi ilə ona təklif olunan məhsullar arasındakı əlaqə böyük problem doğurur. Uşaqlara hər yaş dövrü üçün yerli istehsal olan, keyfiyyətli cizgi filmləri təqdim olunarsa, onların tələbatı məhz yerli və milli dəyərlərə malik olan məhsullarla ödənər.

Nəzərə almaq lazımdır ki, bu ötəri yanaşa biləcəyimiz bir problem deyil. Gələcəkdə çox ciddi fəsadları olan, intensiv zərərə malik bir məsələdir. Hansı ki, bu səbəblə cəmiyyətə qatılan hər bir fərd öz milli dəyərlərindən, milli ruhdan və ən əsas da öz ana dilindən uzaq böyüyür. “Bir xalqı məhv etmək istəyirsənsə, əvvəlcə onun dilini əlindən al”. Ümid edirəm ki, məşhur rus mütəfəkkiri Uşinskinin bu kəlamı məsələnin ciddiyyətini daha aydın şəkildə izah edə bilər.

Problemi necə həll edə bilərik? Bu problem dərin köklərə malikdir, birbaşa dövlətin, xalqın vəziyyəti ilə əlaqədardır. Məsələnin həlli də təbii ki, vaxt və birgə fəaliyyət tələb edən, uzun və mərhələli prosesdir. Buna görə də problemin həllini bir neçə mərhələdə, “iri addımlar”a bölərək göstərə bilərik.

**Struktur** – Ölkədə film istehsalına nəzarət vahid mərkəzdən idarə olunmadığı üçün pərakəndəlik və özəl sektorla dövlət sektoru arasında əlaqənin zəif olmasına səbəb olur. Bu baxımdan “ARKA”-nın (Azərbaycan Respublikası Kino Agentliyi) yaradılması dövlət tərəfindən atılmış müsbət bir addımdır. Bu

vahid idarəetmə mərkəzi sayəsində quruluşla, nəzarətlə, əlaqələrlə bağlı bir sıra problem aradan qalxacaq və ən əsas isə nəzarət sistemi güclənəcəkdir. Həmçinin, bu vahid struktur özəl istehsalçılara da dəstək məqsədilə müxtəlif layihələr, “pitçinq”lər həyata keçirməli və onları xalqın rifahı, uşaqların milli ruhda tərbiyəsi üçün vacib olan kino məhsulları istehsal etməyə istiqamətləndirməlidir.

Vahid mərkəzin yaradılması yayım şəbəkəsini formalaşdırmağı, böyütməyi və nəzarəti öz əlində cəmləşdirməlidir. Ölkənin bir çox şəhər və rayonlarında, ən azından rayon mərkəzlərində yayımı həyata keçirə biləcək kinoteatrlar, zallar yaradılmalıdır. Bu prosesə film istehsalçıları da cəlb ediləcəkdir. Çünki hər bir istehsalçı öz məhsulunu təqdim etmək ücün geniş bazar axtarır. Qısaca, dövlət tərəfindən təşkiletmə, sövqetmə və nəzarət funksiyaları vahid orqan tərəfindən həyata keçirilməlidir.

Ən vacib problem isə televiziya vasitəsilə yayımın təşkilidir. Hansı ki, bu üsulla hər bir evə yol tapmaq mümkündür. Dövlət tərəfindən bəzi qanunvericilik aktlarına əlavələr etməklə televiziya yayımlarında animasiya filmlərinin təqdimatını artırmaq və uşaqlar üçün ayrılan xüsusi saatlarda davamlı olaraq təqdim etmək mümkündür. Hazırda AR-in “Reklam haqqında” qanununun I fəslinin 20.6-cı maddəsinə əsasən uşaqlar üçün nəzərdə tutulmuş verilişlərin reklamla kəsilməsi qanunla qadağandır.

**Mütəxəssis hazırlığı** – Animasiya filmlərinin istehsalı üçün münasib şərait yaradıldıqdan sonra əsas məsələ bu tip filmləri istehsal edə bilən kadr hazırlığıdır. İxtisaslı kadrların hazırlanması üçün təkcə bir yox, bir çox ali təhsil müəssisələri bu təyinat üzrə fəaliyyət göstərməli, filiallar və potensial kadrlar üçün ən rahat formada və uyğun şəraitdə, bu ixtisas üzrə yüksək səviyyədə təhsil alma imkanı yaradılmalıdır. Həmçinin, bu sahə üzrə təhsil alan kadrlar yeni texnologiyaları dərindən qavramalı, bilik və bacarıqlara tam yiyələnməlidir. Dövlət onları xaricə göndərməli, təhsillərinə nəzarət etməli və şərait yaradılmalıdır.

**Maarifləndirmə** – Quruluşla bağlı ən vacib problemlərin həllini başa çatdırıb və daxili film bazarını yerli məhsullarla kifayət qədər təmin etmək olar ki, yayımı dolğun həyata keçirməklə cəmiyyət üzvlərini yerli məhsulların izlənilməsinə cəlb etmək və yerli istehsalçıları cəmiyyət üçün yeni məhsul istehsal etməyə həvəsləndirər. Bunun üçün genişmiqyaslı təbliğat, təşviqat və maarifləndirmə işləri aparılmalıdır. Televiziyalar, internet portalları, sosial şəbəkələr və sırf bu məqsədlə ölkənin müxtəlif bölgələrində, təhsil müəssisələri daxilində yı-

ğıncaqlar, seminarlar təşkil edərək uşaq tərbiyəsində cizgi filmlərinin rolu, milli-mənəvi dəyərlərimizin, dilimizin təbliği, onların yerli istehsalda vacibliyi və əks təqdirdə yaranan problemlər ilə cəmiyyəti tanış etmək, vacib fikirləri onlara aşılamaq zəruri və faydalı bir addımdır. Məhz bu cür tədbirləri davamlı etməklə qısa müddətdə lazım olan fikirlərin yayılmasını təmin etmək mümkündür.

Həmçinin, özəl film istehsalı və yayım şirkətlərinin təbliği ilə milli ruhu aşılayan yerli cizgi filmlərinin istehsalına cəlb etmək vacibdir.

**Virtual bazar** – Şübhəsiz ki, müasir dövrdə tamaşaçılar virtual aləmi, sosial şəbəkələri televiziyadan da daha çox üstün tutur və vaxtının əksər hissəsini orada keçirirlər. Həmçinin mobil telefonlar azyaşlı uşaqların istifadəsində geniş yer tutur. Uşaqlar üçün bu qədər yaxın təmas vasitəsini nəzarətsiz buraxmaq və yeri xarici məhsullara vermək böyük itkiyə səbəb olar. Elektron platformaların, xüsusilə də "Youtube" platformasının yerli animasiya filmləri, maarifləndirici qısa animasiyaları ilə çox sayda təmin olunmağı da çox böyük və əhəmiyyətli bir addımdır. Kiçik marketinq araşdırmaları ilə asanlıqla müşahidə etmək mümkündür ki, azyaşlıların əksəriyyəti "Youtube" platformasının və orada olan xarici, heç bir mənəvi dəyəri aşılamayan, sadəcə əyləncə və faydasız informasiyaların təbliğatı ilə dolu, ticarət marağı güdən videoların aludəçisidir. Odur ki, uşaqlar vaxtında, davamlı və düzgün formada maarifləndirilsə, onlara təqdim etmək üçün keyfiyyətli yerli məhsullar olarsa, gələcəyimiz olan uşaqları böyük zərərlərdən qorumaq mümkün olar.

Texnoloji yeniliklər iş prosesini yüngülləşdirmək, ünsiyyəti, informasiya mübadiləsini rahat və sürətli etdiyi kimi həmin sürətlə də öz ideyalarını yaya bilir. Biz isə belə bir nəticəyə gəlirik ki, bu sürətli informasiya dövründə texniki vasitələrin faydalı tərəfindən yararlanaraq cəmiyyətin rifahını, orada yetişən azyaşlı uşaqların tərbiyəsini, psixologiyasını qorumaq və düzgün istiqamətlərdə inkişafını təmin etmək üçün öz öhdəliklərimizə ciddi yanaşmalı, məsuliyyətli olmalı, rifah üçün atılan addımlarda fəal iştirak etməliyik. Cizgi filmlərin istehsalı da bu prosesdə vacib ünsürlərdən biridir. Onların istehsalını artırmaq, yayımını geniş formada təşkil etmək, izlənilməsi və istehsalı üçün təbliğat aparmaq yaxın gələcəkdə uçuruma yuvarlanacaq bir cəmiyyəti və dilini xilası deməkdir. Bizə yad olan, vətənini, tarixini, mədəniyyətini, mənəvi dəyərlərini tanımayan, öyrənməyən, sadəcə əyləncələrə yönəldilən uşaqlar əvəzinə, milli ruhda böyümüş, vətənini, xalqını, sevən, qoruyan, onlar üçün çalışan və insanlara hörmət-

lə yanaşan uşaqların yetişdirilməsi bizim gələcəyimizi parlaq və möhkəm edər. Unutmayaq ki, bu gün uşaq tərbiyəsində səbəb olduğumuz səhvlər sabah nəticə olaraq qarşımıza çıxacaq və səbəbi də biz özümüz olacağıq. Uşaqlar bizim gələcəyimizdir və onların tərbiyəsində rol oynayan hər bir amillə dərindən maraqlanmalı, onlara nəzarət olunmalıdır.

**Ədəbiyyat siyahısı:**

1. Səs.- 2018.- 14 noyabr.- S. 12.
2. Azərbaycan Respublikasının "Reklam haqqında" qanunu (II fəsil, maddə 20.6)
3. Aydın Kazımzadə. Azərbaycan kinosu - 2 (filmlərin izahlı kataloqu (1898-2002)). Bakı: 2018, səh. 311
4. Mədəniyyət jurnalı.- 2019.- 13 sentyabr.- S. 3.
5. https://www.azanfilm.az/mbsh-tayvanda/

**Гумбет Исмаилов**

## ЗНАЧЕНИЕ МУЛЬТФИЛЬМОВ В ФОРМИРОВАНИИ НОВОГО ПОКОЛЕНИЯ

**Резюме:** Сфера кинопроизводства играет важную роль в формировании и защите культуры государства. В основе этого процесса лежит форма воздействия кино на новое поколение - производство мультфильмов. Количественные и качественные показатели производства мультфильмов оказывают сильное влияние на формирование языковых навыков нового поколения, изучение их истории и культуры и здоровое воспитание.

**Ключевые слова:** мультфильм, ребенок, воспитание, язык, национальность, развитие, значение, роль.

**Humbat Ismayilov**

# THE PLACE OF CARTOONS IN FORMATION OF A NEW GENERATION

**Summary:** The sphere of film production plays an important role in the formation and protection of the culture of the state. At the heart of this process is the form of influence of cinema on a new generation - the production of cartoons. Quantitative and qualitative indicators of the production of cartoons have a strong influence on the formation of the language skills of the new generation, the study of their history and culture, and a healthy upbringing.

**Key words**: cartoon, child, nurture, language, national, development, importance, role.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**professor Əli Əmirli**